Azərbaycan.- 2021.- 24 aprel. S. 1; 4.

# Ermənilərin soyqırımı arzusu

## "Məzlum və zavallı" millət əsrlər boyudur ki, bu istəyinə çatmaq uğrunda mübarizə aparır

**Hər xalqın öz arzusu olur.**

**Bu arzu onunçün məqsədə, hədəfə çevrilir!**

**Məqsədə çatmaqdan ötrü isə bəzən əsrlər tələb olunur.**

**Hətta bu yolda böyük faciələrə, fəlakətlərə tuş gələ bilirsən!**

**Amma əgər niyyətin saf, istəyin real, tutduğun yol doğru və ədalətlidirsə, Tanrı da sənə yardımçı olur.**

### Azərbaycan xalqının arzusu

*Azərbaycan xalqının istəklərini onun ziyalıları, yazıçı və alimləri, dövlət adamları zaman-zaman ifadə ediblər.*

*XİX əsr maarifçiləri xalqımızın savadlanması, müasir dünyagörüşünə yiyələnməsi üçün məktəblər açmış, qəzet çıxarmış, dünyəvi təhsilin yaranması üçün yorulmadan çalışmışlar.*

Sovet dövründə mədəniyyətimiz, dilimiz inkişaf etmiş, yeni ali məktəblər fəaliyyətə başlamış, xalqın ümumi səviyyəsi xeyli yüksəlmişdir.

**Xalqımızın ən ülvi istəklərindən biri müstəqil dövlətə sahiblik idi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti qurucuları bu məqsədə çatsalar da, XI Qızıl ordu yenidən onu qırmızı imperiyanın tərkibinə qatmışdır.**

İkinci dəfə - 1991-ci ildə dövlət müstəqilliyi qazananda xalq həqiqi rəhbərindən ayrı düşdüyündən ərazisinin 20 faizi işğala məruz qaldı.

Multikultural ənənələrə sahib olan Azərbaycan xalqı müxtəlif dinə və dilə məxsus insanlarla daim mehribanlıq şəraitində yaşayır, necə deyərlər, can deyib, can eşidir.

*Son dövrdə xalqımızın ən böyük arzusu öz torpaqlarını işğaldan azad etmək idi.*

***Ardı 4-cü səh.***

# Ermənilərin soyqırımı arzusu

“Məzlum və zavallı” millət əsrlər boyudur ki, bu istəyinə çatmaq uğrunda mübarizə aparır

## ƏSL SOYQIRIMI BUNLARDIR!



*Əvvəli 1-ci səh.*

**Güclü iqtisadiyyatı, qüdrətli ordusu, milli birliyi və cəsur Ali Baş Komandanı olan Azərbaycan xalqı 44 günlük müharibədə öz arzusuna çatdı!**

*Dəmir yumruq Ermənistan ordusunun belini qırdı, işğalçılar müqəddəs torpaqlarımızdan qovuldu.*

**İndi ən böyük istəyimiz Qarabağı dirçəltmək, yenidən tikib-qurmaqdır.**

**Prezident İlham Əliyevin rəhbərliyi ilə bu niyyətimizə də çatacağıq!**

## Dünya erməniliyinin istəyi

*Deyir, niyyətin hara, mənzilin ora!*

*Yəni insan qarşısına hansısa məqsədi qoyaraq inadla ona çatmaq uğrunda dayanmadan mübarizə aparırsa, istəyinə qovuşmasa da, həmin istiqamətdə az-çox nəyəsə nail ola bilir!*

**Vətənsiz, torpaqsız və dövlətsiz olan erməni xalqı daim özünü dünyaya “məzlum”, “zavallı”, “köməyə ehtiyacı olan” fağır millət kimi təqdim edir!**

**Bu xalqın idealı satqınlığı və Türkiyə dövlətinə xəyanəti nəticəsində 1915-ci ildə dövlət səviyyəsində təşkil olunan köçürülmə əməliyyatını “soyqırımı” kimi qəbul etdirməkdir.**

Arxivlərə girməkdən boyun qaçıran, əsl həqiqətin meydana çıxmasından qorxan və buna imkan verməyən erməni diasporu başda ABŞ və Fransa olmaqla bütün dövlətlərə yalvarır, parlamentlərdə deputatları ələ alaraq müzakirələrlə saxta soyqırımı ilə bağlı müxtəlif məsələlər çıxarır, sənədlər qəbul etdirməyə çalışır və hərdən də buna nail olur.

Ermənilərin ən böyük arzularından biri ABŞ Prezidentinin hər ilin 24 aprelindəki çıxışında “soyqırımı” ifadəsini işlətməsidir.

ABŞ-ın yeni seçilən prezidentləri seçki prosesi dövründə ermənilərin səsini almaq üçün onlara “seçkiqabağı vəd” versələr də, dövlətlərinin maraqlarını üstün tutaraq hər dəfə bu məqamda “faciə” söyləməklə kifayətlənirlər.

*Ermənilər yana-yana qalsalar da, ümidlərini növbəti prezidentə bağlamalı olurlar.*

*Beləcə, illər gedir, arzuları isə ürəklərində qalır.*

## Özünə qənim dövlət

Millətin də riyakarı, ikiüzlüsü, yalançısı olur!

Bu da özünəməxsus “milli mentalitet”dir!

Ermənilər zorla bizə “qonşu” ediləndən, daha doğrusu, bizim tarixi torpaqlar hesabına ermənilərə “dövlət” yaradılandan sonrakı dövrlərdə daim bu riyakarlığı, çoxüzlülüyü görmüşük!

**Zəif olanda qula çevrilən, arxasını güclüyə söykəyəndə isə “şir”ə dönən millət hər cür şərəfsizliyə qadirdir!**

*Dünyanın tanınmış yazıçı, şair və zəka sahiblərindən Dümanın, Puşkinin, Marksın onlar barədə dediklərini yada salmaq kifayətdir.*

Özünü daim “ən qədim”, “ən mədəni”, “xristianlığı hamıdan qabaq qəbul etmiş” kimi təqdim edən bu millətin tarixinin qədimliyini göstərən ərazisi, dünyada tanınmış çarları, dini, mədəni və maddi abidələri yoxdur!

**İndiki Ermənistan sonradan əmələgəlmə, vassal və forpost bir dövlətdir!**

Nəinki qədim, hətta Orta əsrlər dövründə belə tarixdə adı qalan 5-6 çarı, dövlət başçısı yoxdur!

Hər xalqdan, ən çox da bizdən oğurlayaraq özününküləşdirdiyi musiqisindən, digər mədəniyyət nümunələrindən başqa heç nəyə sahib deyil!

Azərbaycan ərazisindəki alban kilsələrini oğurlayaraq erməniləşdirməklə özünə qədim din tarixi yaratmaq istəyir.

Ən gülməlisi isə budur ki, bütün dünyaya səpələnərək mutasiyaya uğramış bu millət ağlasığmaz iddialarla - “dənizdən dənizədək uzanan Böyük Ermənistan dövləti” yaratmaq xülyası ilə yaşayır!

Balaca bir ölkəni yaşada, saxlaya bilməyənlər, büdcələri ianələrdən formalaşan dövlət “Böyük Ermənistan” olacaqmış, İlahi!

Havadarlarına, dünya erməniliyinə, ikili standartlara güvənərək tarixinin ən çətin dövründə Azərbaycana qarşı xain əməllərə başladılar, ərazilərimizi ələ keçirmək üçün min bir məkrə, zorakılığa əl atdılar.

Azərbaycan iqtidarının qorxaqlığından və səriştəsizliyindən, ordunun yoxluğundan istifadə edən Ermənistan ərazilərimizin 20 faizini ələ keçirdi.

*Münaqişə, müharibə və işğal dövründə Ermənistan:*

- Azərbaycanın yaşayış məntəqələrini yandırıb dağıtmış, daş üstə daş qoymamışdır;
- Təbii meşələri, yüz illərlə yaşı olan çinarları, qoz ağacı bağlarını qırıb aparmışdır;
- Xocalı, Qaradağlı, Bağanis-Ayrımı soyqırımlarını törətmişdir;
- Tarixi, mədəni abidələrimizi yerləyeksan etmişdir;
- Məscidlərimizi dağıtmış, təhqir etmiş, kilsələri xaraba qoymuş, alban abidələrini oğurlayaraq öz adına dəyişmişdir;
- Su mənbələrinin qarşısını kəsmiş, çayların məcrasını dəyişmiş, əkinləri və insanları susuz qoymuşdur;
- Gəncə, Tərtər, Bərdə və Goranboyu raket-mərmi atəşinə tutaraq yüzlərlə insanın ölümünə və yaralanmasına səbəb olmuşdur;
- Bu gün də xəbisliyindən əl çəkmir, minalanmış sahələrinin xəritəsini vermir ki, yenə də dinc, mülki azərbaycanlılar zərər görsünlər;

**Bu, erməni xislətidir!**

**Bu, faşist xislətidir!**

**Bu, adı olmayan alçaqlıqdır!**

*Əqrəb də vurmağa qurban tapmayanda özü özünü çalır!*

## İtin dişi, donuzun dərisi

Adətən, xəbis adamlara belə deyirlər: Allah sənə heç zaman dərd verməyəcək, çünki səni başqalarının dərdi (uğuru, xoşbəxtliyi mənasında) öldürəcəkdir!

Allah ermənini vətəndən, torpaqdan məhrum edib!

Ömrü boyu ona-buna yaltaqlanmağa, qulluq göstərməyə, alət rolu oynamağa məhkum edib!

Bu millət həmişə özlərindən güclülərə kəllə ataraq başlarını əzdiriblər!

Cəsarətləri ancaq terrora - pusquda durub namərdcəsinə insanları arxadan vurmağa, bomba partladaraq günahsız adamları öldürməyə çatıb!

**Erməninin ən böyük arzusu “soyqırımına uğramış millət” adını almaqdır!**

*Bu yolda dünya erməniliyi milyardlar xərcləyir.*

*Erməni diasporu bütün fəaliyyətini bu adı almağa həsr edib!*

*Necə deyərlər, itin dişi, donuzun dərisi - çək ki, çəkəsən!*

Tarixdə heç bir sənəd, sübut olmadan “belə yüksək adı” heç kim onlara verməyəcək!

Ən yaxşı halda başlarını aldadacaq, seçici səslərini alacaqlar!

Amma başqa bir həqiqət də var: bu millət hansı xislətə və əmələ sahib olduğundan yaxşı xəbərdardır. Odur ki, özünü bu “fəxri ada” layiq bilir!

Neynək, olsun...

*Ermənistana və ermənilərə son xilas şansını Azərbaycan verib: blokadadan çıxmaq, insan kimi yaşamaq, dilənçi vəziyyətindən qurtulmaq!*

Əgər ağıllarını başlarına yığıb sülhə gəlsələr, heç “soyqırımı” iddiasına vaxt və enerji sərf etməyə də ehtiyac qalmayacaq!

Yox, revanşist niyyətlərə düşsələr, gərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğunu və 44 günün reallıqlarını unutmasınlar!

**Bütün hallarda “qara bayramlar”ı mübarək!**

**Bəxtiyar SADIQOV**